No. 54258*

Turkey
and
Azerbaijan

Agreement on cooperation in the field of forensic examinations between the Ministry of Interior of the Republic of Turkey and the Ministry of Justice of the Republic of Azerbaijan. Ankara, 15 March 2016

Entry into force: *25 May 2016 by notification, in accordance with article 8*

Authentic texts: *Azerbaijani, English and Turkish*

Registration with the Secretariat of the United Nations: *Turkey, 9 January 2017*

*No UNTS volume number has yet been determined for this record. The Text(s) reproduced below, if attached, are the authentic texts of the agreement /action attachment as submitted for registration and publication to the Secretariat. For ease of reference they were sequentially paginated. Translations, if attached, are not final and are provided for information only.

Turquie
et
Azerbaïdjan

Accord de coopération dans le domaine des examens médico-légaux entre le Ministère de l'intérieur de la République turque et le Ministère de la justice de la République d'Azerbaïdjan. Ankara, 15 mars 2016

Entrée en vigueur : *25 mai 2016 par notification, conformément à l'article 8*

Textes authentiques : *azerbaïdjanais, anglais et turc*

Enregistrement auprès du Secrétariat des Nations Unies : *Turquie, 9 janvier 2017*

*Aucun numéro de volume n'a encore été attribué à ce dossier. Les textes disponibles qui sont reproduits ci-dessous sont les textes originaux de l'accord ou de l'action tels que soumis pour enregistrement. Par souci de clarté, leurs pages ont été numérotées. Les traductions qui accompagnent ces textes ne sont pas définitives et sont fournies uniquement à titre d'information.

[AZERBAIJANI TEXT – TEXTE AZERBAÏDJANAIS]

TÜRKİYƏ RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ARASINDA MƏHKƏMƏ EKSPERTİZASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA

S A Z İ Ş

Bundan sonra "Tərəflər" adlandırılacaq Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi,

məhkəmə ekspertizası sahəsində əlaqələrin inkişaf etdirilməsinə səy göstərərək,

mövcud dostluq və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin hər iki ölkənin milli maraqlarına uyğun olduğuna razılaşaraq, məhkəmə ekspertizasından və kriminalistikanın müasir metod və üsullarından fəal istifadə etməklə, cinayətkarlığa qarşı mübarizəni gücləndirmək arzusu ilə,

hüquq və hüquq-mühafizə fəaliyyəti sahəsində gələcək münasibətləri möhkəmləndirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Saziş əsasında Tərəflərin məqsədi məhkəmə ekspertizası üzrə birgə elmi tədqiqatların aparılması, məhkəmə ekspertizasının mövcud metodlarının təkmilləşdirilməsi və yenilərinin işlənilməsi, məhkəmə ekspertizası və məhkəmə ekspertizasının standartlaşdırılması üzrə təcrübə mübadiləsi, məhkəmə ekspertizası mütəxəssislərinin əlavə ixtisaslaşma tədbirlərinin təşkil edilməsidir.

Maddə 2

Hazırkı Saziş əsasında Tərəflərin məhkəmə ekspertizası sahəsində əməkdaşlığı bilavasitə Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Təhlükəsizlik üzrə Baş Direktorluğunun Məhkəmə Ekspertizası İdarəsi və Jandarma Məhkəmə Ekspertizası İdarəsi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi arasında həyata keçirilir.

Maddə 3

Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində aşağıda qeyd olunan sahələrdə əməkdaşlıq edirlər:

1. elmi metodika və informasiya üzrə tədbirlərin təşkili, məhkəmə ekspertizası və kriminalistika sahəsində birgə elmi - tədqiqat və təcrübi-konstruktor işlərinin aparılması və məhkəmə eksperizası ilə əlaqədar metod və materialların mübadiləsi üzrə elmi - praktiki tədbirlərin təşkili;
2. Tərəflərdən birinin sorğusu əsasında məhkəmə ekspertizası sahəsində məhkəmə ekspertizasının metodika və üsullarının tətbiq edilməsi və təkmilləşdirilməsi üzrə əməkdaşlıq edilməsi, məhkəmə ekspertizası praktikasında yeni metodların tətbiq edilməsi üzrə mütəxəssis dəstəyinin və əlaqələndirmənin təmin olunması;

3. mütəxəssislərin bilik və bacarıqlarının tətbiqi ilə bağlı vərdişlərə yiyələnməsi üçün imkan yaradılması, məhkəmə ekspertizasının yeni ixtisaslaşma sahələrinin təqdim edilməsi və mütəxəssislərin ixtisaslarının artırılması;

4. məhkəmə ekspertizası fəaliyyətində keyfiyyətin təmin olunması üçün test və tədbirlərin keçirilməsi, məhkəmə ekspertizası üzrə ekspertlərdən ibarət birgə işçi qrupların yaradılması, beynəlxaq tədbirlər ilə bağlı fəaliyyətin həyata keçirilməsi;

5. Tərəflərin hazırladığı yeni məhkəmə ekspertizası metodlarının və texniki vasitələrin test və nəzarət işləri;

6. elmi işlərdə və məhkəmə ekspertizasında bir-birinə elmi metodologiyanın, konsultasiyanın və texniki yardımın təmin edilməsi.

Maddə 4

Bu Saziş çərçivəsində edilən sorğunun yerinə yetirilməsindən irəli gələn xərcləri, Tərəflər başqa şəkildə razılığa gəlmədiyi təqdirdə, sorğu edilən Tərəf ödəyir.

Maddə 5

Tərəflər başqa şəkildə razılığa gəlmədiyi təqdirdə, görüşlər və təlimlərlə bağlı xərcləri ev sahibi olan Tərəf, nümayəndə heyətlərinin beynəlxalq səfər və qalma xərclərini isə göndərən Tərəf ödəyir.

Maddə 6

Hazırkı Sazişdə nəzərdə tutulan məsələlərlə bağlı yarana biləcək istənilən fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 8-ci maddəsinə uyğun olaraq qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 8

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə göndərdiyi sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş 5 il müddətinə qüvvədə qalır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə 6 ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatlk kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş göndərməzsə, Saziş avtomatik olaraq bir illik müddətlərə uzadılır.

Ankara şəhərində, 15 mart 2016-cı il tarixində, hər biri Türk, Azərbaycan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentik. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə edilir.

Türkiyə Respublikasının
Daxili İşlər Nazirliyi
adından

Efkan ALA
Türkiyə Respublikasının Daxili İşlər Naziri

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi
adından

Abid ŞƏRİFOV
Azərbaycan Respublikası Baş Nazirinin müavini

[ENGLISH TEXT – TEXTE ANGLAIS]

AGREEMENT

ON COOPERATION IN THE FIELD OF FORENSIC EXAMINATIONS

BETWEEN

THE MINISTRY OF INTERIOR OF THE REPUBLIC OF TURKEY

AND

THE MINISTRY OF JUSTICE OF THE REPUBLIC OF AZERBAIJAN

The Ministry of Interior of the Republic of Turkey and The Ministry of Justice of the Republic of Azerbaijan, hereinafter referred to as the "Parties"

Endeavouring to develop the relations in the field of forensic examinations;

Agreeing that expanding the existing friendship and mutually beneficial cooperation are in the national interests of both countries and wishing to strengthen the fight against crime by actively using forensic examinations and modern methods and techniques of the criminalistics;

Aiming at reinforcing the future relations in the field of law and law enforcement activities;

Have agreed as follows:

ARTICLE 1

The Parties, under this Agreement, aim at conducting joint scientific researches on forensic examinations, developing the existing forensic examination methods and elaborating the new ones, sharing experiences in forensic examination and in standardization of forensic examinations and organizing further specialization activities of the forensic experts.

ARTICLE 2

The cooperation in the field of forensic examinations under this Agreement shall be carried out directly between Gendarmerie Forensic Department and Forensic Department of the Turkish National Police of the Ministry of Interior of the Republic of Turkey and the Forensic Centre of the Ministry of Justice of the Republic of Azerbaijan.

ARTICLE 3

The Parties, in accordance with their national legislations and within the framework of their competences shall cooperate in the areas set out below: